# "20 Yanvarda doğulanlar" adlı bədii-sənədli filmin treyleri yayımlanıb

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) təşəbbüsü əsasında xalqımızın qəhrəmanlıq salnaməsi olan 20 Yanvar hadisələri və bu hadisələr zamanı şücaət göstərmiş dənizçilərimiz haqqında çəkilən "20 Yanvarda doğulanlar" adlı bədii-sənədli filmin treyleri yayımlanıb.**

ASCO-dan bildirilib ki, filmin ssenarisi hadisələrin iştirakçısı olmuş dənizçilərin açıqlamaları və xatirələri əsasında yazılıb. Həmçinin ssenarinin ərsəyə gəlməsində o dövrün araşdırmaçı tarixçiləri, peşəkar ssenaristlər və hərbi ekspertlər də yaxından iştirak ediblər.




Bədii-sənədli filmin quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Elxan Cəfərovdur.

Azərbaycan. - 2023.-11 yanvar.- S.11.